# Yüksək təhsil etibarlı gələcəkdir

## Təmayülləşmə uğurlu nəticələrə aparır

Müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev demişdir: "Təhsil millətin gələcəyidir". Əlbəttə, hər bir millətin gələcəyi onun keyfiyyətli təhsilinin üzərində qurulmuşdur. Keyfiyyətli təhsilə sahib olmaq üçün isə təhsil sahəsində səmərəli islahatlar aparmağa ehtiyac yaranır. Bu gün təhsilin keyfiyyətini yüksəltmək üçün uğurlu addımlar atılır. Belə addımlardan biri də Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyasının tələbinə uyğun olaraq tam orta təhsil pilləsində təmayülləşməyə keçməklə bağlı atılan addımdır. Təmayülləşmənin tətbiqi nəticəsində tədris prosesinin təşkilində şagirdlərin meyl və maraqları nəzərə alınır, onlar keçdikləri fənnlərdən daha dərin biliklərə yiyələnir və öyrənmə motivasiyası artır.

Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb ötən tədris ilində pilot məktəblər sırasına qoşulmuş və 3 istiqamət üzrə təmayül sinifləri yaradılmışdır. Məktəmizdə ildən ilə təhsilin keyfiyyəti yüksəlir, ali məktəblərə qəbul olan şagirdlərin sayı artır. Həmçinin məktəbimiz keçirilən bilik yarışlarında, fənn olimpiadalarında yüksək səviyyədə iştirak edir. Bu il məzunlardan 50 nəfər ali məktəblərə sənəd vermiş və onlardan 37 nəfəri ali, digərləri isə orta ixtisas məktəblərinə daxil olmuşdur. 4 nəfər şagirdimiz 600-dən yuxarı bal toplamışdır. Bir nəfər şagirdimiz isə kimya fənnindən respublika fənn olimpiadasında iştirak edərək III yeri tutmuş və bürünc medalla təltif olunmuşdur. İki nəfər 9-cu, iki nəfər isə 11-ci sinif məzunumuz fərqlənmə attestatına layiq görülmüşdür.

Təhsilə, gənclərə diqqət və qayğı hər zaman ölkə prezidenti cənab İlham Əliyevin diqqət mərkəzində olmuşdur. İnanırıq ki, bu sahədə atılan uğurlu addımlar qarşıdakı illərdə təhsil sahəsində daha böyük nəticələrin əldə olunmasına gətirib çıxaracaqdır.

**Ruslan İSMAYILOV,**
**Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin direktor müavini.**

## Zəhmət nəticəsiz qalmır

Azərbaycan Respublikasında bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də köklü islahatlar həyata keçirilir. Bu islahatların əsas məqsədi cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdir. Bununla əlaqədar təhsilin keyfiyyətini şərtləndirən amillərə, ilk növbədə təhsilin məzmununa, müəllim hazırlığına və qiymətləndirmə sistemlərinə yenidən baxılması zərurəti yaranmışdır. Həyata keçirilən tədbirlərdən biri də müəllimlərin diaqnostik qiymətləndirmədən keçməsidir. Qiymətləndirmənin məqsədi müəllimlərin bilik və bacarıqlarının səviyyəsinin müəyyənləşdirilməsi, onların dərs yükünün optimallaşdırılması, maddi təminatının yaxşılaşdırılmasıdır.

Cari ilin aprel ayında rayonumuzun müəllimləri də növbəti diaqnostik qiymətləndirmədə iştirak etdilər. Qeyd etmək istəyirəm ki, doğma Qəbələmiz bu gün bütün sahələrdə tanındığı kimi təhsil sahəsində də öncüllərdəndir. Rayonumuz həmişə elmli, savadlı müəllimləri ilə seçilir. Təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə müəllimlərimiz bir çox təlim kurslarına cəlb olunublar və interaktiv təlim metodlarına yiyələniblər. Bütün bunların nəticəsidir ki, müəllimlərimiz qiymətləndirmədə yüksək nəticə göstərdilər. Onlarla müəllim 50-dən yuxarı iki nəfər müəllim isə ən yüksək nəticə olan 60 bal toplamışdır. Onlardan biri Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin biologiya müəllimi Lalə Cəfərova, digəri isə mən oldum. 2004 cu ildən Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbində biologiya müəllimi kimi əmək fəaliyyətinə başlamışam. Bizim məktəbimiz daim öz uğurlari ilə secilib. Bu il məktəbi bitirən 20 məzundan 14 nəfəri ali məktəblərə qəbul imtahanlarında istirak etmiş, 10 nəfəri tələbə adini qazanmisdır. Ali məktəblərə qəbul olunanların 6 nəfəri 500 dən yuxarı bal toplamışdır. Çox sevindirici haldır ki, onların 4 nəfəri 600 dən yuxarı bal toplayıb.

Mən də bir müəllim kimi daima öz üzərimdə işləyirəm. Artıq 14-cü ildir ki mən bu peşədəyəm. Yüksək nəticə göstərən şagirdlərim çox olub. Onlardan bu gün müəllim, həkim və digər peşə sahələrində müvəffəqiyyətlə çalışanlar çoxdur. Bu il iki şagirdim—Alı İsmiyev 667 balla, Cəlal Nərimanzadə 665 balla Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə qəbul olunublar.

**Elmira MUSTAFAYEVA,**
**Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbin müəllimi.**

## Qışa hazırlıq işləri başa çatmışdır

***Rayonun ümumtəhsil məktəbləri və uşaq bağçalarının qışa hazırlığı hər il olduğu kimi bu il də diqqət mərkəzindədir. İstilik sistemi olmayan məktəblər kifayət qədər odun sobası və odunla təmin olunmuşdur. İstilik sistemi olan məktəblərin qazanxanaları təmir olunmuş, duru və mavi yanacağa olan tələbatı həll edilmişdir. 23 məktəbəqədər müəssisənin hamısı odunla təmin olunmuşdur. Bundan başqa həmin müəssisələrdə cari təmir işləri aparılmış, köhnə avadanlıqlar yenilənmişdir.***

***«Qəbələ»***

## Uğurlu olsun

Mürvət Bilalov adına Aydınqışlaq kənd tam orta məktəbinin binası 45-50 il bundan öncə o dövrün tikinti qaydalarına uyğun inşa edilmişdi. Belə ki, məktəbin istilik sistemi yox idi. Suvaq, rəngləmə necə gəldi zövqsüz aparılmışdı. Məktəbdə istifadə olunan avdanlıqların xeyli hissəsi yararsız vəziyyətdə idi. 10 ilə yaxın idi ki, məktəbin sinif otaqları, dəhlizinin döşəməsi də sıradan çıxmışdı.

Məktəb kollektivinin, valideynlərin xahişlərini nəzərə alan Təhsil Nazirliyi və Qəbələ Rayon İcra Hakimiyyəti bu ilin yayında məktəbin əsaslı təmirinə qərar verib. Təmir çox qısa müddətdə, ancaq çox yüksək keyfiyyətdə başa çatdırılıb. Məktəbdə vahid istilik sistemi quraşdırılıb. Bütün avadanlıqlar yenisi ilə əvəz olunub. Çürüyüb sıradan çıxmış qapılar, pəncərələr, döşəmələr yeniləri ilə, daha keyfiyyətli və müasirləri ilə əvəz olunub. Bir sözlə məktəb yenidən tikilib, desək səhv etmərik.

Sentyabrın 20-də yenilənmiş Aydınqışlaq kənd məktəbində bayram əhval-ruhiyyəsi vardi. Təhsil Nazirliyinin, rayon icra hakimiyyətinin, məktəbi təmir etmiş tikinti təşkilatının, kənd ictimaiyyətinin nümayəndələri əlamətdar hadisə ilə əlaqədar məktəb kollektivini təbrik etmək üçün toplaşmışdı.

Rayon İcra hakimiyyəti başçısının müavini Ətayə Osmanova, Təhsil Nazirliyinin sektor müdiri həmyerlimiz Cəsarət Valehov, digər qonaqlar, ictimaiyyət nümayəndələri məktəbin sinif otaqlarını, köməkçi otaqları gəzərək görülmüş işlərə baxıblar. Qonaqlar məktəb kollektivini təbrik edərək bu dərs ilində onlara uğurlar arzuladılar.

**Rəna FİKRƏTQIZI,**
**Aydınqışlaq kəndi.**

## Qəbələ rayonu üzrə yüksək balla ali məktəblərə daxil olan məzunların siyahısı

| № | Soyadı, adı, atasının adı | Bitirdiyi məktəb | Bal | Daxil olduğu ali məktəb |
|---|---|---|---|---|
| 1 | Nəzərli İmran Şirvan | Tüntül kənd tam orta məktəb | 695 | DİA - hüquq fakultəsi |
| 2 | Şirinova Aylin İkram | Mıxlıqovaq kənd tam orta məktəb | 690 | BDU - hüquq fakultəsi |
| 3 | Rəhimova Nazənin Pərviz | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb | 685 | ADA - hüquq fakultəsi |
| 4 | Bəxtiyarova Qönçə Vəfadar | Məlikli kənd tam orta məktəb | 680 | ATU- müalicə işi fakultəsi |
| 5 | Əliyeva Nəzrin Əmir | Qəbələ şəhər 5 nömrəli tam orta məktəb | 680 | BDU - hüquq fakultəsi |
| 6 | Qədimli Zaur Namiq | Hacıalılı kənd tam orta məktəb | 673 | ATU- müalicə işi fakultəsi |
| 7 | Əmirov Amil Araz | Əmirvan kənd tam orta məktəb | 672 | ADİU - maliyyə işi fakultəsi |
| 8 | Ağamoğlanova Ayşən Həsrət | Qəbələ şəhər 4 nömrəli tam orta məktəb | 670 | BDU - hüquq fakultəsi |
| 9 | Musayeva Günel Şaiq | Qəbələ şəhər 1 nömrəli tam orta məktəb | 667 | ATU- müalicə işi fakultəsi |
| 10 | İsmili Alı Elsevər | Vəndam qəsəbə 2 nömrəli tam orta məktəb | 667 | ATU- müalicə işi fakultəsi |
| 11 | Rəsulzadə Dünya Anar | Zarağan kənd 1 nömrəli tam orta məktəb | 666 | Turizm Universiteti |
| 12 | Şərifov Alxan Habil | Yemişənli kənd tam orta məktəb | 666 | ATU- müalicə işi fakultəsi |
| 13 | Nərimanzadə Cəlal Canəli | Vəndam qəsəbə 2 nömrəli tam orta məktəb | 665 | ATU- müalicə işi fakultəsi |
| 14 | Kərimov Elmar İslam | Tüntül kənd tam orta məktəb | 663 | ADİU - maliyyə işi fakultəsi |
| 15 | Şərifli Humay Rahib | Hacallı kənd tam orta məktəb | 663 | ATU -müalicə işi fakultəsi |
| 16 | Qasımov İsmayıl Şahin | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb | 660 | DİA -menecment fakultəsi |
| 17 | Cəbrayılbəyli Nilufər Pərviz | Zarağan kənd 1 nömrəli tam orta məktəb | 654 | BDU - hüquq fakultəsi |
| 18 | Yaralıyeva Nəcabət Nadir | Məmmədağalı kənd tam orta məktəb | 653 | ADU- xarici dil (ingilis dili) fakultəsi |

## Uğurlarıma görə müəllimlərimə borcluyam

Doğma vətənimizin çiçəklənməsi naminə vətənmizə layiqli vətəndaş olmaq üçün Azərbaycan gəncliyi öz bilik və bacarığını daim artırır, elmlərə daha mükəmməl yiyələnir. Mən də mənə güvənən, zəhmətimi çəkən valideynlərmin və müəllimlərimin ümidlərini doğruldaraq qəbul imtahanında 643 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin mühasibat uçotu və audit fakültəsinə daxil olmuşam.

Rayonumuzun qabaqcıl məktəblərindən biri olan Soltannuxa kənd tam orta məktəbinin məzunuyam. Onu qeyd edim ki məkəbimizin uğurları ildən-ilə artir. Bu il məzunlarımızdan 10 nəfər respublikamızın nüfuzlu ali təhsil müəssiələrinə daxil olmuşdur. Həm də bu məzunlardan 5 nəfəri 600-dən yüksək bal toplamışdır. Əlbəttə bu, müəllimlərimizin gərgin əməyi və məzunlarımızın çalışqanlığı sayəsində mümkün olmuşdur. Məktəbimizin ən böyük uğuru bu il mənim respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə qızıl medala layiq görülməyim olmuşdur. Ötən illərdə olimpiadalarda iştirak etsəm də məhz bu il yüksək mükafata layiq görüldüyüm üçün çox xoşbəxtəm. Bu uğurumda mənə dəstək olan valideynlərimə, müəllimlərimə, xüsusilə də riyaziyyat müəllimim Nizami müəllimə minnətdaram.

**Elsun Rzayev,**
**Soltannuxa kənd tam orta məktəbin məzunu.**